# Brahiozavr

Vikipediya, azad ensiklopediya

**† Brahiozavr**



*Brachiosaurus altithorax* (bərpa olunmuş)

**Elmi təsnifat**

Aləmi: Heyvanlar
Tip: Xordalılar
Sinif: Sürünənlər
Dəstəüstü: Dinozavrlar
Dəstə: Saurischia
Yarımdəstə : Sauropodomorpha
İnfradəstə: Sauropoda
Fəsilə: Brachiosauridae
Cins: **Brahiozavr**

**Elmi adı**

*Brachiosaurus* RIGGS, 1903

**Növ**

- *B. altitorax* RIGGS, 1903
- *B. brancai* JANENSCH, 1914 (*Giraffatitan*?)

**Vikinnövlərdə təsnifat (https://species.wikimedia.org/wiki/Brachiosaurus?uselang=az)**

**Vikianbarda axtar (https://commons.wikimedia.org/wiki/Special:Search/Brachiosaurus?uselang=az)**

**Brahiozavr** (lat. *Brachiosaurus*; «çiyin kərtənkələsi») — Ot yeyən dinozavrdır. Sauropoda infradəstəsinə aid növdür. Yura dövrünün sonları 161,2-145,2 milyon il öncə Şimali Amerika və Afrika ərazisində yayılmışdır. Seysmozavr aşkarlanana qədər dünyada yaşamış ən hündür dinozavr olmuşdur.

## Mündəricat


**Etimologiya**

**Xüsusiyyətləri**

**Növləri**

**Qidalanması**

**Kinoda**

**İstinadlar**

**Mənbə**


# Etimologiya

*Brachiosaurus* adı *Çiyin kərtənkələsi* mənasını verir. Bu yunan sözüdür q.yun. βραχίων — «çiyin» və q.yun. σαῦρος — «kərtənkələ».

# Xüsusiyyətləri

8 metrlik boğazın sonunda kiçik görsənən başa malik imiş. Baş 13 metr yüksəklikdə yerləşirmiş. Burun dəlikləri gözlərin altında yerləşərən nisbətən uzun olmuşdur. Ehtimal ki, kiçik xortuma malik imiş. Onların ön ayaqları arxa ayaqlarına nisbəttə uzun olmuşdur. Bu xüsusiyyət canlını Zürafəyə bənzədirmiş. Onları boynu qabağa istiqamətlənmiş formada olmuşdur. Dişləri güçlü və bıcağa bənzər imiş.

Brahiozavrlar Şimali Amerika və Afrika ərazisində Yura dövrünün sonlarından Təbaşir dövrünün ortalarına qədər ki dövrdə yaşamışdır.

# Növləri

Böyük ehtimal ki, ağac yarpaqlar ilə qidalanırmış. Bəziləri onların 50 t, 11 və ya 22 metr uzunluğa (eninə) malik imiş. Bəziləri isə 60 t, hündürlüyü 15 m və 26–27 m uzunluğa malik imiş. Hətta belə versiya vardır ki, çəkisi 80 ton imiş. 2015 20 iyun tarixli son məlumata əsasən Brahiozavr 25 uzunluğa, 36 ton çəkiyə və 13 metr hündürlüyə malik imiş. Berlinin Humbold adına muzeydə 14 metrlik *Brachiosaurus brancai* (Almaniyanın Afrikadakı müstəmləkəsində Tendaquru dağında indiki Tanzaniya ərazisində aşkarlanmış tapıntı) hazırda ayrı cins olan Giraffatitana daxil edilir.

*Brachiosaurus nougaredi Lapparent* 1960-ci ildə təsvir edilmşdir. Bu növ *Wargla* Əlcəzairdə aşkarlanmışdır. Sonradan bi növün Alb əsrinə aidliyi müəyyənləşdirilmişdir. Bu isə onu deməyə əsas verir ki, bu növ *Brachiosaurus altithorax* və *Giraffatitan* kimi dinozavlardan 40 milyon il cavan olmuşdur. Hazırda bu takson *nomen dubium* kimi qeyd olunur. Səbəb isə tapıntı azlığıdır.

2003 Gerhar Mayer (*Gerhard Maier*) *Indiana University Press* yeni növü *Abdallahsaurus* aşkarladığını bildirmişdir. Harırda isə bu növ nomen nudum hesab edilir və tapıntılar isə *Giraffatitan* olduğu deyilir[1].

Heykəl

Brahiozavrın skleti

## Qidalanması

Belə bir fikir vadır ki, Brahiozavr əsasən çay və göl kənarlarına yaşamışlar. Bitkilərə çatmaq üçün onlar su tutarlarını sərbəst keçə bilirdilər. Bu fikir son zamanlar inkar edilir. Belə ki, güçlü axınlar bu nəhəngi batıra və boğa bilərdi[2].

## Kinoda

Stiven Spilberqin «Yura dövrünün parkı» filmində Brahiozavr cəmi bir necə epizodda görünür. «Yura dövrünün parkı 3» filmində (Co Constonun rejisorluğu ilə) cəmi bir epizodda görsənir.

## İstinadlar


1. *Maier, Gerhard*. (2003) «African Dinosaurs Unearthed: The Tendaguru Expeditions». *Indiana University Press*. 512pp.
2. 10 Facts About Brachiosaurus (http://dinosaurs.about.com/od/dinosaurbasics/a/brachiofacts.htm)


## Mənbə

- dinozavro.ru (http://www.dinozavro.ru/juras/brahiozavr.php)
- palaeos.com (http://palaeos.com/vertebrates/sauropodomorpha/macronaria.html#Brachiosaurus)


Mənbə — "https://az.wikipedia.org/w/index.php?title=Brahiozavr&oldid=4560678"

**Bu səhifə sonuncu dəfə 13 yanvar 2019 tarixində, saat 14:36-də redaktə edilib.**

Mətn Creative Commons Attribution-ShareAlike lisenziyası altındadır, bəzi hallarda əlavə şərtlər tətbiq oluna bilər. Ətraflı məlumat üçün istifadə şərtlərinə baxın.